# Yurd yeri



Səma arınmış-durulmuş deyilsə, özü-özünü saxlaya bilməz. Əgər torpaq kövrəkdisə ya ona yiyə duran yoxdusa əvvəl-axır cadarlanar, bölünər. Əgər bədəndə ruh saf deyilsə, ilim-ilim itər gedər; çöllər yaşıllanmırsa, deməli səhraya çevrilməyinə az qalıb; hökmdar və onun ətrafı nəcabət yiyəsi deyilsə, daima camaatın qınağına tuş gələr. Nə qədər ucada olsan belə, gərəkdi ki, özünü ləl-cəvahir yox, adicə bir daş sayasan... Həyatmı yaxındadır, yoxsa şan-şöhrət? Hansı qiymətlidir — sağlıq, yoxsa var-dövlət? Nəyə dözmək çətindir? Sel kimi axan qazanca, yoxsa itkiyə? Hədsiz varidat yığan, gözü doymayan tamahkar insan gec-tez o qədərincə də ziyana giriftar olar. Həddini aşmayan kəs heç vaxt uduzmaz, ya da özü bilə-bilə başına bəla gətirməz. Nə yazıq ki, çoxları bunun əksini fikirləşir...

DAO-sindən...

# DƏRBƏND QALASI

## QƏDİMDƏN ONA XƏZƏRİN QAPISI DEYİBLƏR

Böyük Qafqaz silsiləsi Xəzərə üç-dörd kilometr qalmış sona varır və sahilboyu dar keçid yaradır. Dərbənd səddi əvvəlcə bu keçidi qapayırdı. Hələ e.ə. VI əsrdə antik müəlliflər Midiya sərhədlərindən söz açanda "Qaspi qapısı"nı təsvir etmişlər. Sonralar ayrı-ayrı qaynaqlarda "Xəzər qapısı", "Alban qapısı", "Hun keçidi", "Qafqaz qapısı", "Dərbənd qapısı" kimi müxtəlif cürə adlanan həmin keçid qədim və orta çağlarda mühüm hərbi-strateji əhəmiyyət daşımış, onu əldə saxlamaq bölgə dövlətlərinin diqqətindən yayınmamışdır.

Hunların ən qüdrətli çağında – Avropanın yarısını fəth etdikləri V əsrdə, onlara qarşı çəkilən Dərbənd səddi – Dərbənd qalası və Dağbarından ibarətdir. Narınqalanın cənub-şərq bucağından başlayan Dağbarı – meşəliklə, yarğanlı dağlarla qərbə – Qafqaz dağlarının zirvə və keçidlərinə doğru uzanırdı. Bu nəhəng təbii istehkamın uzunluğu 40 km-dən artıqdır. Qala, qalaça, uzun divarlar, qüllə, bürc və xəndəklərdən ibarət Dağbarı ətraf əraziləri nəzarət altında saxlayır.

Dərbənd qalası – orta çağlardakı Azərbaycanın şah əsəri olmaqla, Dərbəndin özü bir şəhər kimi şəhərsalma sənətimizin dəyərli bir incisidir. El içində Dəmirqapı Dərbənd kimi tanınmağın bir səbəbi də – keçidi qapayan qoşa divar arasında möhkəm qapı – şəhərin olmasıydı. El yaddaşında, eləcə də səyahətnamələrdə Dərbənd – Dədə Qorqudun basdırıldığı müqəddəs məkan kimi də anılır.

Ərəb tarixçisi əl-Məsudi (943-cü il) bu istehkamların əhəmiyyəti barədə belə yazırdı:

*"Əgər Allah hər şeyi görməyi, böyüklüyü və mərhəməti ilə İran şahlarına (mülük-ül-furs) əl-Bab şəhəri, onun quru, dəniz və dağlarda olan divarları və digər qalaların tikilməsinə, həmçinin, müxtəlif xalqlardan olan adamların yerləşdirilməsinə, müxtəlif dərəcəli hökmdarlar təyin etməsinə kömək göstərməsəydi, onda digər xalqlar, şübhəsiz, Bərdə, Ər-Arran, Zəncan, Əbhər, Qəzvin, Həmədan, Dinavər , Nihavənd vilayətlərinə və digər yerlərə gəlib çıxardılar".*

VII əsr alban_tarixçisi Moisey Kalank atuylu *Dərbəndin əzəmətli divarlarından, Qafqaz dağları ilə Şərq dənizi arasındakı keçidi tutmaq məqsədilə möhkəm istehkamlar*



*tikmək üçün memarlar toplanmasından və tikinti üçün vəsait axtarılıb tapılmasından, inşaatda yaranan çətinliklərdən* danışır.

Əl-İdrisi, liman şəhərini belə təsvir edir: *"Bab əl-Əbvab-dəniz sahilində çox böyük şəhərdir. Şəhərin ortasında gəmilər üçün liman vardır. Bu limanın girəcəyində onu hər iki tərəfdən qapayan bəndə qədər iki bina tikilibdir. Girəcəyə zəncir çəkilib və liman sahibinin icazəsi olmadan buraya heç kəs nə girə, nə də çıxa bilər. Dərbəndin divarları çox möhkəm daşdan, çiy kərpic və gildən yapılmışdır... Orada böyük miqdarda istehsal edilən kətan parçadan* Arranda əhalinin üst geyimlərinin altından geyilən libaslar tikilir".

XIII- əsrin əvvəlinə aid "Əcaib əd-Dünya" əsərində Dərbənd malları arasında rus tacirlərinin şimaldan gətirdikləri qiymətli *"qunduz, samur, sincab xəzlərinin, qul, həm də gözəl cariyələrin"* adları sadalanır.

1971-ci ildən etibarən Dərbənd ərazisində aparılan arxeoloji qazıntılar bu qədim şəhərin həyatına dair məlumatları daha da zənginləşdirir. Qazıntılar nəticəsində iki hissədən – içqala (kuhəndiz) və şəhərin özündən (şəhəristan) ibarət orta çağlar Dərbəndinin strukturu müəyyən olunur. Dərbəndin müdafiə istehkamları kompleksində *Narınqala* içqalası xüsusi yer tutur. İçqalada mədəni təbəqənin qalınlığı 10 metrə çatır. İçqalanın şimal-qərb hissəsində orta əsr Xan sarayı kompleksinə aid, ümumi sahəsi 85 kvadratmetr olan 4 bina aşkar olunub. Çoxlu ocaq və təndirlər, daş özüllər üzərində yaxşı qalmış buruqvan – naxışla bəzədilmiş ağac və bişmiş kərpicdən oymalı sütunlar üzə çıxarılıb. Başqa təbəqədənsə XI-XII əsrlərə aid şirli və şirsiz saxsı, memarlıq ayrıntıları, şüşə və metal məmulat, o cümlədən muncuq bilərziklər, naxışlanmış sümük məmulatlar, silahlar, içərisində bəzi hallarda çini fincan və piyalələr, eləcə başqa gətirilmə mallar aşkarlanıb.

İçqalanın bu hissəsi XI əsrin sonundan etibarən daha sürətlə məskunlaşıbdır. Kompleksin böyüklüyü, içqalanın əlverişli mövqeyi, bina divarlarının orta əsr Dərbənd memarlığı üçün nadir sayılan bişmiş kərpicdən tikilməsi və qeyri avadanlıq, bu memarlıq abidəsinin XII-XIII yüzillər Dərbənd xanının sarayı olduğuna haqq qazandırır.

İçqaladan başqa, şəhərin şimal və cənub divarları arasında, Cümə məscidindən 60-70 addım qərbə doğru, təxminən 2 metr dərinlikdə, XI-XII əsrlərə aid su kəməri, şirlənmiş saxsı məmulatlar üzə çıxıb. Qazıntının mərkəzində, Cümə məscidinin qənşərində külli miqdarda saxsı qablar da tapılıb. Cənub divarının yaxınlığında bişmiş kərpicdən tikilmiş XII-XIII əsrlərə aid birotaqlı bina da üzə çıxıb. Burda şirli və şirsiz kasalar, şüşə məmulatı tapılıb. Təbəqənin qalınlığı 3.5 metrdır. Burda dərinliyi 20 metrə çatan qədim quyular da varmış. Onların çoxu bir-birinə birləşikdir və ehtimal ki, uzun müddətə hesablanmış su anbarlarıdır...

Cümə məscidi isə artıq ərəblərin vaxtında, yazılı mənbələrin xəbər verdiyi kimi, Dərbəndə iri liman olarkən tikilibdir. Arxeoloji tapıntılar göstərir ki, XI-XIII əsrin əvvəllərində Dərbənd artıq gur bir şəhər həyatı yaşamaqda olan sənət mərkəzi, ticarətin inkişaf etdiyi, seçilib-saylıan bir şəhər olubdur...

